# “Birkart BOKT” MMC

## 31.12.2024-cü il tarixinə maliyyə hesabatları və Müstəqil Auditor Hesabatı

2025

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**

31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat "Birkart BOKT" MMC-nin maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik "Birkart BOKT" MMC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə "Birkart BOKT" MMC işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- "Birkart BOKT" MMC-nin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək aktivlərinin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

**Rəhbər** **Baş mühasib**

**M.Y.**

## MÜSTƏQİL AUDİTOR HESABATI

"Birkart BOKT" MMC

RƏY

"Birkart BOKT" MMC-nin (bundan sonra cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandlrmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və idarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub – olmadığına dair kafi əminlik əldə etmək və rəyin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Auditor E. Əliyev**

Bakı şəhəri, Azərbaycan Respublikası

17.02.2025

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| ***Cari aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalrentləri | | 1 116 114,66 | 1 363 118,26 |
| Qısamüddətli debitor borcları | | | |
| Ehtiyatlar | | | |
| Gələcək dövrün xərcləri | | 0,00 | 0,00 |
| Digər aktivlər | | 0,00 | 120,30 |
| **Cəmi cari aktivlər** | | **1 116 114,66** | **1 363 238,56** |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq, tikili və avadanlıq | | 1 383,20 | 309 899,43 |
| Qeyri maddi aktivlər | | 15 239,38 | 18 590,38 |
| İnvestisiyalar | | 86 031 180,00 | 60 629 580,00 |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **86 047 802,58** | **60 958 069,81** |
| **Cəmi aktivlər** | | **87 163 917,24** | **62 321 308,37** |
| ***Öhdəliklər və kapital*** | | | |
| ***Cari öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Vergi və sairə məcbiri ödənişlər üzrə öhdəliklər | | | |
| Qısamüddətli kreditor borcları | | | |
| Sair qısamüddətli öhdəliklər | | 610,32 | 1 746,34 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **610,32** | **1 746,34** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Uzunmüddətli kreditor borcları | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **0,00** | **0,00** |
| ***Xalis aktivlər və kapital*** | | | |
| Nizamnamə kapitalı | | 88 335 580,00 | 63 089 980,00 |
| Əlavə kapital | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | -1 172 273,08 | -770 417,97 |
| İstehlak fondu | | | |
| **Cəmi xalis aktivlər və kapital** | | **87 163 306,92** | **62 319 562,03** |
| **Cəmi öhdəliklər və kapital** | | **87 163 917,24** | **62 321 308,37** |

Rəhbər ____________________

M.Y.

BİRKART BOKT

Baş mühasib ____________________

# MƏCMU MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Gəlirlər | | | |
| Əsas əməliyyat gəlirləri | | 799,20 | 2 003,46 |
| Faiz gəlirləri, royalti və dividendlər | | | |
| Sair əməliyyat gəlirləri | | 85 064,22 | 66 068,55 |
| **Cəmi əməliyyat gəlirləri** | | **85 863,42** | **68 072,01** |
| Xərclər | | | |
| Kommersiya xərcləri | | 15 033,66 | 24 091,62 |
| İnzibati xərclər (ə/haqqı, amortizasiya, digər) | | 79 545,63 | 97 089,46 |
| əmək haqqı xərcləri və sosial ayırmalar | | 75 101,02 | 62 418,81 |
| köhnəlmə və amortizasiya xərcləri | | *4 444,61* | *34 670,65* |
| Maliyyə xərcləri | | 0,00 | 1 750,00 |
| Sair əməliyyat xərcləri (Ə/V-in dəyərdən düşməsi) | | 393 139,24 | 62 418,79 |
| **Cəmi əməliyyat xərcləri** | | **487 718,53** | **185 349,87** |
| Əməliyyat mənfəəti (zərərlər) | | -401 855,11 | -117 277,86 |
| Ümumi mənfəət (zərər) | | -401 855,11 | -117 277,86 |
| Mənfəət vergisi | | 0,00 | 0,00 |
| **Hesabat dövrünün sonuna maliyyə nəticələri** | | **-401 855,11** | **-117 277,86** |

Rəhbər ____________________

M.Y.

Baş mühasib ____________________

# Kapitalda dəyişikliklər hesabatı

31 dekabr 2024-cü il tarixə

AZN

| | Nizamnamə kapitalı | Əlavə kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| *31 dekabr 2023 tarixə qalıq* | **63 089 980,00** | **0,00** | **-770 417,97** | **62 319 562,03** |
| Daxil olub | 73 950 000,00 | | -401 855,11 | **73 548 144,89** |
| İstifadə olunub | 48 704 400,00 | | 0,00 | **48 704 400,00** |
| *31 dekabr 2024 tarixə qalıq* | **88 335 580,00** | **0,00** | **-1 172 273,08** | **87 163 306,92** |

Rəhbər

M.Y.

Baş mühasib

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

31 dekabr 2024-cü il tarixə

AZN

| | 2024 | 2023 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Müştərilərdən daxilolmalar | 799,20 | 925,41 |
| Sığorta satışından daxil olmalar | | |
| Alınmış avanslar (Kapitalbank) | | |
| Mal və xidmətlərə görə təchizatçılara ödənişlər | -1 520,51 | -3 240,22 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | -75 101,02 | -19 598,57 |
| Vergi və başqa fondlar üzrə pul vəsaitlərinin ödənilməsi | | -300,00 |
| Digər əməliyyat fəaliyyətilə bağlə pul vəsaitləri ödənişləri | | |
| Sair ödənişlər (Geri qaytarılmış avans) | 0,00 | 0,00 |
| **Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması** | **-75 822,33** | **-22 213,38** |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Əsas vəsaitlərin və Q/maddi aktivlərin satılmasından daxil olanpul mə | 85 064,22 | 66 068,55 |
| Kapital qoyuluşu üçün mədaxil | 122 570 923,87 | 31 693 565,24 |
| Faiz daxilolmaları | | |
| Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmalrı | | |
| Kapital qoyuluşundan məxaric | -122 827 169,36 | -39 944 285,00 |
| **Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **-171 181,27** | **-8 184 651,21** |
| ***Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar | | |
| Qiymətli kağızların buraxılışından daxilolmalar | | |
| Borc şəklində alınmış vəsaitlərə görə geri qaytarmalardan məxaric | | |
| **Cəmi maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hər** | **0,00** | **0,00** |
| **Cəmi mədaxil olunan pul** | **122 656 787,29** | **31 760 559,20** |
| **Cəmi məxaric olunan pul** | **-122 903 790,89** | **-39 967 423,79** |
| **Dövrün əvvəlinə olan qalıq** | **1 363 118,26** | **9 569 982,85** |
| **Dövrün sonuna qalıq** | **1 116 114,66** | **1 363 118,26** |
| **Pul vəsaitlərinin artması (azalması)** | **-247 003,60** | **-8 206 864,59** |

**Rəhbər** ____________________

M.Y.

**Baş mühasib** ____________________

"Birkart BOKT" MMC

## UÇOT SIYASƏTI VƏ MALIYYƏ HESABATLARINA QEYDLƏR

31 dekabr 2024-cü il tarixində başa çatmiş il üzrə

---

### MÜƏSSİSƏ HAQQINDA MƏLUMAT

"Birkart BOKT" MMC 04.05.2018-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi Bakı şəhər Vergilər Departamentinin Kommersiya Hüquqi Şəxslərinin Dövlət Qeydiyyatı İdarəsində qeydiyyatdan keçmiş və ona 1404208811 nömrəli VÖEN verilmişdir.

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən kreditlərin verilməsi, habelə "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə müfafiq qaydada məşğul olmaq hüququ verən BKT-31 saylı 05.11.2018-ci il tarixli Lisenziya verilmişdir.

"Birkart BOKT" MMC-nin nizamnamə kapitalı 88 335 580,00 (Səksən səkkiz milyon üç yüz otuz beş min beş yüz səksən) manat həcmindədir və 100% Kapital Bank Açıq Səhmdar Cəmiyyətinə aiddir.

Müəssisəin hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Fizuli küçəsi, ev 71.

Müəssisənin maliyyə-təsərrüfatfəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

Direktor: 01.01.2024-08.02.2024 Kərimov Fərid Rəfail oğlu;

09.02.2024-31.12.2024 Qubadov Mirpaşa İbad oğlu

Baş mühasib: Həbibov Zəka

### TƏQDİMATIN ƏSASI

Müəssisə mühasibat yazılışlarını Azərbaycan mühasibat uçotu qaydaları əsasında aparır.

Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

### UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

### UÇOT METODU

Cəmiyyət üzrə mühasibat uçotu Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 09 dekabr 2019-cu il tarixli Q-15 №li Qərarı ilə təsdiq edilmiş "Müəssisələrin illik mühasibat hesabatları və onun tətbiqi qaydaları" və "Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat" əsasən və 4 may 2018-ci il tarixli, 1140-VQD saylı "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər nəzərə alaraq aparılır.

Maliyyə hesabatları ilkin mühasibat sənədləri əsasında hazırlanmışdır.

### RİSKLƏRİN İDARƏ OLUNMASI VƏ DAXİLİ NƏZARƏT SİSTEMİ

Cəmiyyət davamlı inkişafın təmin olunmasına və əlavə gəlirliliyə nail olmaq üçün risklərin idarə olunmasına böyük əhəmiyyət verir. Risklərin idarə edilməsi prosesi Cəmiyyətin fəaliyyətinə xas olan risklərin müəyyən edilməsi, qiymətləndirməsi, onlar barədə hesabatların hazırlanması, məqbul

risk limitlərinin müəyyən edilməsi vasitəsi ilə onlara nəzarət edilməsi və risklərin azaldılması prosesini özündə ehtiva edir. Əsas risklərə kredit, bazar, likvidlik və əməliyyat riskləri daxildir.

Həmçinin, rəhbərlik daxili nəzarət sisteminin mövcudluğuna və onun davamlı səmərəliliyinin yoxlanmasına cavabdehlik daşıyır. Cəmiyyət idarəetmə və informasiya sistemləri vasitəsi ilə davamlı olaraq riskləri nəzərdən keçirir.

## FƏALİYYƏTİN FASİLƏSİZLİYİ

Əlavə edilmiş maliyyə hesabatları fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmışdır. Hesabatları hazırlayarkən rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini həyata keçirmə qabilliyyətinin mövcud olduğu qiymətləndirilmişdir. Rəhbərlik Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəalliyətini davam etdirməsinə şübhə yarada biləcək, onları hadisələrlə və vəziyyətlə bağlı qeyri-müəyyənliklərin olmasına inandıra biləcək hər hansı bir sübutla qarşılaşmamışdır.

## ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır ("AZN")

## PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

"Birkart BOKT" MMC Kapital Bank ASC-nin mərkəzi filialında hesablaşma hesabları və valyuta hesabları açmaqla bank əməliyyatlarını Azərbaycan manatı ilə həyata keçirir.

Müəssisənin bank rekvizitləri aşağıdakı kimidir:

- hesablaşma hesabı AZN - AZ09AIIB35090019440423972102
- müxbir hesabı - AZ37NABZ01350100000000001944
- bankın kodu - 200026
- bankın VÖEN-i - 9900003611
- S.W.İ.F.T - AIIBAZ2X

"Birkart BOKT" MMC üzrə pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna qalığı aşağıdakı kimidir:

| | 2024 | 2023 |
|---|---|---|
| Kassa qalığı | 0,00 | 0,00 |
| Bank hesabında milli valyuta ilə vəsait qalığı | 1116114,66 | 1363080,17 |
| Kart hesabında valyuta ilə vəsait qalığı | 0,00 | 38,09 |
| **Cəmi pul vəsaitləri** | **1116114,66** | **1363118,26** |

## TORPAQ, TİKİLİ, AVADANLIQ VƏ AMORTİZASIYA

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

| | |
|---|---|
| Binalar və tikililər | 7% |
| Maşın və avadanlıqlar | 25 % |
| Nəqliyyat vasitələri | 25 % |
| Digər aktivlər | 20 % |

Hər bir maliyyə sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə atrıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

Yenidənqiymətləndirilmiş aktivlər satıldıqda, sair ehtiyatlar (rezervlər) hesabına aid edilmiş məbləğlər "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

Müəssisənin balansında torpaq yoxdur. Qalan bütün əsas vəsaitlər ilkin dəyərdən amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Müəssisəyə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

"Birkart BOKT" MMC üzrə əsas vəsaitlərin hərəkəti aşağıdakı kimidir:

| | **Binalar** | **Kompüter avadanlıqları** | **Digər əsas vəsaitlər** | **Mebel və avadanlıqlar** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə ilkin dəyəri** | **373499,52** | **9194,83** | **14461,61** | **460,20** | **397616,16** |
| Yığılmış amortizasiya | 70676,31 | 7382,67 | 9299,92 | 357,83 | 87716,73 |
| **01 yanvar 2024-cü il tarixə qalıq dəyəri** | **302823,21** | **1812,16** | **5161,69** | **102,37** | **309899,43** |
| Daxilolmalar | 0,00 | 1 392,40 | 0,00 | 0,00 | 1392,40 |
| Xaricolmalar | 373499,52 | 4 717,91 | 14461,61 | 460,20 | 393139,24 |
| Yerdəyişmə | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Amortizasiya hesablamaları | 0,00 | 1 093,61 | 0,00 | 0,00 | 1093,61 |
| Yenidən qiymətləndirmə | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| Dəyərdən düşmə | 70676,31 | 3990,16 | 9299,92 | 357,83 | 84324,22 |
| **31 dekabr 2024-cü il tarixə ilkin dəyəri** | **0,00** | **5869,32** | **0,00** | **0,00** | **5869,32** |
| Yığılmış amortizasiya | 0,00 | 4486,12 | 0,00 | 0,00 | 4486,12 |
| **31 dekabr 2024-cü il tarixə qalıq dəyəri** | **0,00** | **1383,20** | **0,00** | **0,00** | **1383,20** |

## QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Müəssisə ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, Amortizasiya olunan qeyri-maddi aktivlər üzrə illik amortizasiya normaları istifadə müddəti məlum olmayanlar üçün 10 il, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə müəyyən edilir. Müəssisə qeyri-maddi aktivlərə qanunvericiliklə müəyyən edilmiş amortizasiya hesablayır.

"Birkart BOKT" MMC-nin Qeyri-maddi aktivlərinin hərəkəti aşağıdakı kimidir:

| | |
|---|---|
| **1 yanvar 2024-cü il tarixə balans dəyəri** | **33510,00** |
| Yığılmış amortizasiya | 14919,62 |
| **1 yanvar 2024-cü il tarixə qalıq dəyəri** | **18590,38** |
| Daxilolmalar | 0,00 |
| Xaricolmalar | 0,00 |
| Amortizasiya hesablamaları | 3351,00 |
| **31 dekabr 2024-cü il tarixə balans dəyəri** | **33510,00** |
| Yığılmış amortizasiya | 18270,62 |
| **31 dekabr 2024-cü il tarixə qalıq dəyəri** | **15239,38** |

## İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR VƏ AİDİYYATI AYIRMALAR

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Müəssisə işçilərin əmək haqqlarindan məcburi sosial sığorta haqları tutur və onların Dövlət Sosial Müdafiə Fonduna köçürülür. Bundan əlavə bu tip təqaüd sistemi işəgötürən tərəfindən işçilərin əmək haqqı fondunun müəyyən faizi kimi Dövlət Sosial Müdafiə Fonduna məcburi sosial sığorta haqları ayırmlarını nəzərdə tutur.Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Fondu tərəfindən yerinə yetirilir. Müəssisə Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı,fərdi qadalara malik deyildir. Bundan başqa, Müəssisədə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

2024-cü ildə işçilərin orta sayı 7 nəfər, əmək haqqı fondu 57142,83 manat olmuşdur. Bundan əlavə 5635,00 manat mükafat hesablanmışdır. İşçilərlə bağlı digər xərclər 244,50 manat olmuşdur. İlin sonuna müəssənin işçilərə əmək haqqı borcu qalmamışdir. İşçilərin əmək haqqından 12078,69 manat Dövlət Sosiai Müdafiə Fonduna ayırmalar hesablanmış və müvafiq hesablara köçürülmüşdür. İlin sonuna Dövlət Sosial Müdafiə Fonduna borc qalmamışdır.

## HESABLAŞMA VƏ KREDİT ƏMƏLİYYATI

Debitor borclar alıcılar və sifarişçilərlə hesablaşmadan yaranmış, kreditor borclar isə mal gondərənlər, xidmət göstərənlər, podratçılar və digər kreditorlarla hesablaşmalardan yaranmışdır.

"Birkart BOKT" MMC hesabat ilndə bank kreditləri almamışdır.

Müəssisənin debitorlarla və kreditorlarla hesablaşmalari aşağıdakı kimidir:

| | 01.01.2024-cü ilə borc qalığı | Yaranan borc | Ödənilən borc | 31.12.2024-cü ilə borc qalığı |
|---|---|---|---|---|
| **Debitor borclar:** | **0,00** | 85863,42 | 85863,42 | **0,00** |
| o cümlədən vaxtı kecmiş | | | | |
| **Kreditor borclar:** | **1746,34** | 95385,24 | 96521,26 | **610,32** |
| o cümlədən vaxtı kecmiş | | | | |

## İNVESTİSİYALAR

Müəssisənin investisiya üzrə hesablaşmalari aşağıdakı kimidir:

| | 01.01.2024-cü ilə qalıq | Mədaxil | Məxaric | 31.12.2024-cü ilə qalıq |
|---|---|---|---|---|
| Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən törəmə müəssisələrə investisiyalar | **26739400,00** | 107996180,00 | 48704400,00 | **86031180,00** |
| Qeyri-maliyyə sektorunda fəaliyyət göstərən asılı müəssisələrə investisiyalar | **33890180,00** | 0,00 | 33890180,00 | **0,00** |
| **Cəmi** | **60629580,00** | **107996180,00** | **82594580,00** | **86031180,00** |

## GƏLİR VƏ XƏRCLƏRİN TƏHLİLİ

2024-cü ildə müəssisə əsas fəaliyyət növünə aid olan işləri yerinə yetirmişdir. Müəssisənin il ərzində əsas fəaliyyəti üzrə gəlirləri, yəni göstərilmiş xidmətlər üzrə haqq və komissiya gəlirləri 799,20 manat olmuşdur. Sair əməliyyat gəlirləri, yəni Əsas vəsait və digər aktivlərin satışından gəlirləri 85064,22 manat olmuşdur.

Müəssisənin 2024-cü ildə gəlirdən çıxılan xərcləriin məbləği 487718,53 manat olmuşdur.

Müəssisənin 2024-cü ildə ümumi xərclərin icrası aşağıdakı kimi olmuşdur:

| Xərclərin adı | manat | çəkisi (%) |
|---|---|---|
| Əmək haqqı | 57142,83 | 11,72 |
| Mükafat | 5635,00 | 1,16 |
| Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 12078,69 | 2,48 |
| İşçilərlə bağlı digər xərclər | 244,50 | 0,05 |
| Əsas vəsaitlərin dəyərdən düşməsi | 393139,24 | 80,61 |
| Əsas vəsaitlərin amortisasiyası | 1093,61 | 0,22 |
| Q/m aktivlərin amortizasiyası | 3351,00 | 0,69 |
| İcarə haqqı | 1911,60 | 0,39 |
| Rabitə xərcləri | 170,54 | 0,03 |
| Bank xərcləri | 2111,52 | 0,43 |
| Proqram təminatı bağlı xərclər | 6840,00 | 1,40 |
| Sair xərclər | 4000,00 | 0,82 |
| **Cəmi** | **487718,53** | **100,00** |

## MƏNFƏƏT VERGİSİ

"Birkart BOKT" MMC 2024-cü ildə -401855,11 manat zərərlə işləmişdir və mənfəət vergisi hesablanmamışdır.

## VERGİLƏR

Müəssisə Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq ödəmə mənbəyindən vergi, muzdlu və muzdlu olmayan gəlirlərdən gəlir vergisi, bu gəlirlərlə əlaqədar sosial sığorta ayırmalarının ödəyicisidir.

"Birkart BOKT" MMC-nin vergilər üzrə hesablamaları və odənişləri aşağıdakı kimi olmuşdur:

| Vergilər | 01.01.2024-cü ilə borc qalığı | Hesablanmışdır | Ödənilmişdir | 31.12.2024-cü ilə borc qalığı |
|---|---|---|---|---|
| Əmlak vergisi | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| ÖMV | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| **CƏMİ:** | **0,00** | **0,00** | **0,00** | **0,00** |

Hesabat ilinin sonuna büdcəyə bütünlüklə vergilər üzrə borc qalığı qalmamışdır.

**KAPİTALDA DƏYİŞİKLİK**

Müəssisənin ümumi kapitalı onun ixtiyarında olan fond və rezervlərdən ibarətdir ki, bunlar da dövlət tərəfindən qoyulmuş investisiya və sərəncamda qalan mənfəət hesabına formalaşır.

"Birkart BOKT" MMC üzrə kapitalda dəyişiklik aşağıdakı kimi olmuşdur:

| | Nizamnamə kapitalı | Əlavə kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixə qalıq** | **63089980,00** | **0,00** | **-770417,97** | **62319562,03** |
| Daxil olub | 73950000,00 | 0,00 | -401855,11 | **73548144,89** |
| İstifadə olunub | 48704400,00 | 0,00 | 0,00 | **48704400,00** |
| **31 dekabr 2024-cü il tarixə qalıq** | **88335580,00** | **0,00** | **-1172273,08** | **87163306,92** |

Rəhbər ____________________

M.Y.

Baş mühasib ____________________